# V BÖLMƏ
# YAŞIL İQTİSADİYYAT, MARKETİNQ, SAHİBKARLIQ VƏ BİZNES FƏALİYYƏTİ

**UOT: 338**

*Ləman Rafiq qızı ALLAHVERDİYEVA*
*ADİU-nun nəzdində Qida Sənayesi Kollecinin müəllimi*
*e-poçt: ilaxh@mail.ru*
*10.30546/4.71.73001.2024.016*

## YAŞIL İQTİSADİYYAT, YAŞIL ARTIM VƏ DAVAMLI İNKİŞAF

*Xülasə*

**Tədqiqatın məqsədi** – institusional nöqteyi-nəzərdən yaşıl iqtisadiyyata, yaşıl artım və davamlı inkişafa strateji cəhətdən keçidin təhlilidir.

**Tədqiqatın metodologiyası** – mövzunun tədqiqində məntiqi təfəkkürə söykənən analiz və sintez, faktlar haqqında fikir söyləmək üçün müqayisə, induksiya və deduksiya metodlarından istifadə edilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – bütün dünyada yayılmış bir iqtisadi anlayış olaraq yaşıl iqtisadiyyat ekoloji risklərin və ekoloji çatışmazlıqların əhəmiyyətli dərəcədə azaldılması yolu ilə insanların rifahı və sosial vəziyyəti arasında balansa nail olmağa çalışır.

**Tədqiqatın nəticəsi** – yaşıl iqtisadiyyat mövcud modellə müqayisədə daha yüksək iqtisadi artım templəri təmin edən qlobal iqtisadiyyatı yenidən canlandırır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Qloballaşan dünyada ətraf mühitin qorunmasına dair məsələlər cəmiyyət və müxtəlif təsərrüfat subyektləri arasında məsuliyyəti müəyyən edir. Bu gün biznesin davamlılığını təmin etmək məqsədilə cəmiyyətin ekoloji maarifləndirilməsi və onların da bu problemlərə adekvat reaksiyası aktual məsələlərdəndir.

***Açar sözlər: yaşıl iqtisadiyyat, davamlı inkişaf, yaşıl artım, ətraf mühit, transformasiyalar.***

### *Giriş*

“Yaşıl iqtisadiyyat” anlayışı geniş anlayış olub iqtisadi göstəricilərin müəyyən edilməsi daxil olmaqla çoxsəviyyəli idarəetməni əhatə edir.

Yaşıl iqtisadiyyat ətraf mühit və iqtisadiyyat arasında qırılmaz əlaqələrə əsaslanan davamlı inkişafa nail olunması üçün vasitədir. Bu baxımdan yaşıl iqtisadiyyat rifahı artırır, sosial və iqtisadi bərabərsizliyi azaldır və ekoloji riskləri azaldır.

Yaşıl iqtisadiyyat ekoloji cəhətdən təbii ehtiyatların qorunmasına, daha çox ekosistem xidmətlərinin və məhsulların istehsalına və ekoloji böhranı yaradan emissiyaları və çirkləndiriciləri azaltmağa yönəlmişdir. Yaşıl iqtisadiyyata keçid bir-biri ilə əlaqəli iqtisadi, sosial və ekoloji böhranları həll edə bilər.

Yaşıl iqtisadiyyata keçid ekosistemlərin bərpası, qorunması və təkmilləşdirilməsi ilə, az karbonlu iqtisadiyyata və iqlim dəyişikliyinə davamlılığa keçidi dəstəkləmək üçün təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması ilə bağlı ekoloji prioritetlərə malikdir. Yaşıl iqtisadiyyatın inkişafı ekosistem xidmətlərinin davamlı proqramlarının hazırlanması bacarığından asılıdır. Ekosistem xidmətlərinin sxemi yaşıl iqtisadiyyatda maraqlı tərəflərin qəbulunu və iştirakını təşviq edə bilər.

Yaşıl iqtisadiyyat iqtisadi fəaliyyətin daha da inkişaf edən, daha artıq sosial ədalətə və daha sağlam ətraf mühitə əsaslanan inklüziv iqtisadiyyata çevrilməsinin zəruri alətlərini təqdim edir.

Yaşıl iqtisadiyyat iqtisadi inkişafın və ekoloji davamlılığın birgə fəaliyyət göstərdiyi, bir-birini gücləndirdiyi və sosial inkişafda irəliləyişi dəstəklədiyi bir iqtisadiyyatdır. Bəzi müəlliflər hesab edirlər ki, yaşıl iqtisadiyyat anlayışı ekologiya və iqtisadiyyatın kəsişməsində yerləşir, digərləri

üçün isə yaşıl iqtisadiyyat cəmiyyətin və deməli, ətraf mühitin altsistemidir.

***Yaşıl iqtisadiyyat konsepsiyası***

Yaşıl iqtisadiyyat konsepsiyası iqtisadi inkişaf və ekoloji siyasətin bir-biri ilə əlaqəli olduğunu qəbul edir və beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, akademik və tədqiqat institutları tərəfindən təbliğ olunur.

Müasir cəmiyyətin həyat tərzi kimi meydana çıxan inkişaf təbii sərvətlərin daha çox istismarına və həyat üçün təhlükəyə çevrilməsinə səbəb oldu. İstehsalın artmasına yönəldilmiş inkişaf iqtisadi cəhətdən təkmilləşmə ilə nəticələnsə də sosial və ekoloji sahələrdə uğursuzluqla üzləşdi. Məsələn, istixana qazlarının artırılması, meşə sahələrinin ixtisar olunması, növlərin və biomüxtəlifliyin yox olması, zəngin və yoxsul ölkələrdə əhalinin orta gəlirindəki qeyri-bərabərliyin mövcudluğu və s.

Yaşıl iqtisadiyyat 2008-ci ildə, iqtisadi böhranın ən qızğın çağında artan sosial bərabərsizliyi azaltmaq və davamlı inkişafa nail olmaq üçün bir vasitə kimi təqdim edildi.

Yaşıl iqtisadiyyat konsepsiyası 2008-ci il qlobal maliyyə böhranından sonra ortaya çıxaraq inkişaf təcrübələrinin radikal transformasiyasını şübhə altına aldı. İlk vaxtlarda yaşıl iqtisadiyyat konsepsiyası həm maliyyə böhranının həlli, həm də ətraf mühit və iqtisadiyyatın kəsişməsində davamlı artıma əsaslanan siyasət idi.

2008-ci il maliyyə böhranından sonra yaşıl enerji mənbələri və texnologiyalarına investisiya qoyuluşlarını stimullaşdırmaq üçün yaşıl təşviq proqramları işə salındı. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) iqlim dəyişikliyini azaltmaq üçün yaşıl iqtisadiyyatla bağlı təşəbbüs irəli sürdü. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının (UNEP) konsepsiyasına əsasən yaşıl iqtisadiyyat ekoloji riskləri və ekoloji çatışmazlıqları əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, insanların rifahını və sosial bərabərliyini yaxşılaşdırmaq məqsədi daşıyır.

2009-cu ildə dünya iqtisadiyyatının canlandırılması, iqlim dəyişikliyinin və ətraf mühitin deqradasiyasının doğurduğu nəticələri yumşaltmaq və yoxsulluğun azaldılması strategiyası kimi Qlobal Yaşıl yeni kurs təklif edilmişdir.

Yaşıl iqtisadiyyat konsepsiyasının SWOT təhlili Fosse, Petrik və başqaları tərəfindən hazırlanmışdır [4, s. 16-17].

Yaşıl iqtisadiyyat konsepsiyasının güclü tərəflərinə aşağıdakılar daxildir:

- beynəlxalq miqyasda geniş yayılmış konsepsiya;
- ekoloji, iqtisadi və sosial dəyişikliyə müsbət təsir;
- sektorlararası inteqrasiyanı təşviq edən yanaşma;
- yerli/regional təcrübə və bilikləri istifadə edir;
- maraqlı tərəflərin cəlb olunmasını və yerli təşkilatların hüquq və səlahiyyətlərinin artırılması;

Yaşıl iqtisadiyyat konsepsiyasının zəif tərəflərinə aşağıdakılar daxildir:

- yaşıl iqtisadiyyatın qlobal tərifinin olmaması;
- situasiya konsepsiyaları və xüsusiyyətləri nəzərdən keçirilən sahədən asılılığı;
- yaşıl iqtisadiyyata keçidin maliyyə faydaları haqqında tam anlayışın olmaması;
- ənənəvi biznes modellərinə, mövcud iqtisadi subyektlərə dəyən ziyan.

Yaşıl iqtisadiyyat konsepsiyasının imkanları kimi aşağıdakılar göstərilə bilər:

- iqlim dəyişikliyi və davamlı inkişafla bağlı məsələləri həll edir;
- ixtisaslı, sabit və ədalətli iş yerləri yaradır;
- iqtisadiyyatı canlandırır və biznes üçün yeni imkanlar açır;
- enerjidən asılı olmamağı eləcə də su və ərzaq təhlükəsizliyini təşviq edir;
- yoxsulluğu azaldır, sərvətin ədalətli bölüşdürülməsini və sosial bərabərliyi təşviq edir;
- cəmiyyətin daxili və xarici təhdidlərə qarşı dayanıqlığını artırır.

Yaşıl iqtisadiyyat konsepsiyasına təhdidləri isə belə qeyd edə bilərik:

- dövlət və özəl maliyyənin olmaması;
- dəyişən istehlak və istehsal nümunələri, eləcə də həyat tərzi ilə bağlı problemlər;

- maraqlarının pozula biləcəyinə inananların dəyişikliyə qarşı müqaviməti.

Bu baxımdan “Yaşıl iqtisadiyyat” konsepsiyası bu problemlərin həlli yollarından biri ola bilər. O, inkişaf və sosial ədalət, ekoloji təhlükəsizlik və təbii sərvətlərdən qənaətlə istifadə arasında körpü kimi çıxış edə bilər.

***Yaşıl artım və davamlı inkişaf konsepsiyaları***

Yaşıl iqtisadiyyat və yaşıl artım aşağı karbonlu təbii ehtiyatlardan səmərəli istifadəni, digər kəsişən faydalarla əlaqəli sosial inklüziv və ekoloji cəhətdən davamlı inkişafı təşviq etmək üçün istifadə edilən yeni anlayışlardır.

Yaşıl artım yaşıl innovasiyalar üçün əlverişli mühitin yaradılmasından və yerli səviyyədə inkişaf etdirilən texnologiyalardan daha çox asılıdır.

Yaşıl artım ətraf mühitin davamlı inkişafının təmin olunması , zərərin azaldılması və təbii ehtiyatların insanların rifahı üçün vacib olan ekoloji xidmətlərin təqdim edilməsi məqsədlərinə yönəlir.

Yaşıl artım davamlı istehsal, istehlak və resursların səmərəli istifadəsinə diqqət yetirir. Davamlı yaşıl artıma nail olmaq cəhdləri daha yüksək gəlirlər, sosial faydalar təmin etmək, ətraf mühitin deqradasiyasını və iqlim dəyişikliyinə həssaslığı azaltmaq məqsədi daşıyır.

Yaşıl iqtisadiyyata institusional yanaşma ənənəvi iqtisadi artımdan ayrı deyil [3, s.17]. Yaşıl iqtisadiyyat konsepsiyası davamlı inkişafın beynəlxalq kontekstində yaşıl artım konsepsiyası ilə əlaqələndirilir. Bununla belə, yaşıl iqtisadiyyat anlayışı ilə bəzi uyğunsuzluqları müəyyən edir və yaşıl artım konsepsiyasının yaşıl iqtisadiyyat konsepsiyasından fərqli olduğu və ayrıca müzakirə edilməli olduğu qənaətinə gəlir. Yaşıl artım yaşıl iqtisadiyyatın istifadəsinə əsaslanır və yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişafa yönəlmiş inkişaf siyasətidir.

Davamlılıq cari tələbatların ödənilməsini gələcək nəsillərin tələbatlarının ödənilməsinə xələl gətirmədən həyata keçirmək kimi müəyyən edilir.

Bu konsepsiyanın əsas ideyası Roma Klubunda yaranmışdır.

1972-ci ildə bu klubda menecerlər, mühəndislər və bütün Avropanın alimlərindən ibarət bir qrup ekoloji problemlərə aid “Artım hüdudları” (Friedman, 1975) adlı mühüm sənəd tərtib etdi.

Bu sənəddə iqtisadi artım və əhaliyə dəstək baxımından təbii resursların bərbad vəziyyəti: Avropada, meşələrin ciddi şəkildə məhv edilməsi, Afrika qitəsində aclıq, ətraf mühitin keyfiyyətinin tropik ölkələrində pisləşməsi, qlobal istiləşməni yaradan istixana effekti, ozon qatının deşilməsi və s. kimi ciddi ekoloji problemlərin mövcudluğu və yaxın zamanlarda əgər tədbirlər görülməzsə dünyanın məhvinin qaçınılmaz olduğu göstərilirdi.

Dəyişikliklərin təbii enerji ehtiyatlarını kommersiya məqsədləri üçün istifadə edən, sənaye cəhətdən inkişaf etmiş, daha çox enerji istehlak edən Amerika Birləşmiş Ştatları, Kanada və Yaponiya ölkələrindən başlanılmasına qərar verilmişdi. Sonra Yer üzündə ekoloji böhranın dərk olunması transmilli inkişafın nəticələrinin dərkinə gətirib çıxardı.

Beləliklə, yoxsul ölkələrdə tropik meşələrin qorunması dünyanın diqqət mərkəzi oldu. Davamlı inkişaf konsepsiyası məhz burada yarandı.

Cari inkişafın risk və nəticələri gələcək nəsillərə tamamilə ötürülməməli , amma eyni zamanda həm indiki, həm də gələcək nəsillər üçün ədalətli şəkildə baxılmalıdır [7, s.25].

Bu inkişaf nəzəriyyələri (onlardan biri davamlı inkişafdır) inkişaf siyasətinin hazırlanmasında elitaya güclü təsir göstərir.

İnkişafın həyata keçirilməsində bu nəzəriyyələrin tətbiqi dinamik xarakter daşıyır.

Ekoloji davamlılıq və iqtisadi artım bir –birinə uyğun gəlir. Yaşıl iqtisadiyyat indiki və gələcək nəsillərin rifahını prioritetləşdirir və təkmilləşdirilmiş texnologiyaların səmərəliliyi ilə məhdudlaşmır. Yaşıl iqtisadiyyat davamlı inkişaf, sosial ədalətin və insanların rifahının artırılması, ekoloji çatışmazlıq və ekoloji risklərin azaldılması üçün zəruridir. Əlverişli mühit yaratmaq üçün iqtisadiyyatın müxtəlif sektorlarında qeyri-davamlı fəaliyyətlərin müəyyən edilməsi və aradan qaldırılması yaşıl iqtisadiyyatın mühüm tədbirləridir.

Yaşıl iqtisadiyyat davamlı inkişafı dəstəkləyir. Bu davamlı inkişaf istixana qazları emissiyaları, təbii ehtiyatlardan, su, torpaq, meşələr və s istifadə baxımından son həddinə çatan mövcud iqtisadi modelin sosial və ekoloji xərclərinin əvəzlənməsinə istiqamətlənir.

“Yaşıl” iqtisadiyyat davamlı inkişafa və ekoloji iqtisadi biliklərə əsaslanan iqtisadi inkişaf modeli kimi çıxış edir.

“Yaşıl” iqtisadiyyatın digər iqtisadi rejimlərdən fərqləndirici xüsusiyyəti iqtisadi dəyər kimi təbii kapitalın və ekoloji xidmətlərin birbaşa qiymətləndirilməsidir ki, bu zaman cəmiyyət üçün çəkilən xərclər və onların uçotu izlənilir, aktivlər təhlükə altında qoyulmur.

BMT-nin ətraf mühit proqramının (UNEP) “Yaşıl iqtisadiyyat yolunda” adlı məruzəsində deyilir ki, yaşıl iqtisadiyyat rifah və sosial ədaləti artırmağa qadirdir. Yaşıl iqtisadiyyat iqtisadi artımın ətraf mühitə mənfi təsirini və təbii resursların çatışmazlığını aradan qaldırmağa səy göstərir.

UNEP-in verdiyi bu tərifə dayanaraq bu anlayış sadə cümlədə aşağı karbonlu (istehsal tullantılarsız və ətraf mühiti çirkləndirmədən), resursa qənaət edən və sosial ədalətli iqtisadiyyat kimi şərh edilə bilər.

O zaman bəs “yaşıl iqtisadiyyat” (Green Economy) ilə davamlı inkişaf necə fərqlənir?

“Yaşıl iqtisadiyyat” konsepsiyası davamlı inkişaf konsepsiyasını tamamlayır. Məlum olduğu kimi, davamlı inkişafın əsas prinsipi cari tələbatların ödənilməsini gələcək nəsillərin tələbatlarının ödənilməsinə xələl gətirmədən həyata keçirməkdir. Beləliklə demək olar ki, davamlı inkişafın əsas mühərriki yaşıl iqtisadiyyatdır.

Gələcək həyatın əsas çağırışlarını aşağıdakı kimi təyin etmək olar: birincisi, 2050-ci il planetimizdə daha çox insan yaşayacaq; ikincisi, bizim məhdud ehtiyatlar resurslarından və enerji ehtiyatlarından getdikcə daha çox insanlar istifadə edəcək, nəticədə məhdud resurslar və enerjinin qiymətləri artmaqda davam edəcək.

Konkret olaraq müxtəlif sahələrdə davamlı inkişaf həyata keçirilməsinə mane olan bir sıra problemlər mövcuddur:

1. Həyatın bütün aspektlərində davamlı inkişafın əhəmiyyətinin ümumi və geniş yayılmış şəkildə müxtəlif maraqlı tərəflərin anlamasına hələ də ehtiyacın olması;

2. Konkret tədbirlər kimi davamlı inkişafın əksini tapdığı ekoloji, iqtisadi, sosial sahədə məlumatların və qaydaların hazırlanması;

3. Resurslardan səmərəli istifadə və tullantıların azaldılması, obyektlərin və onların genişləndirilməsi daxil olmaqla ətraf mühitin çirklənməsinin monitorinqinin gücləndirilməsi əks olunan ekoloji cəhətdən təhlükəsiz fəaliyyətin inkişaf etdirilməsi və təşviqinin vacibliyi;

4. İnstitusional potensialın və insan resurslarının inkişaf etdirilməsi ilə müşayiət olunan hüquqmühafizə və çirklənməyə qarşı mübarizə tədbirləri də daxil olmaqla resurslardan və təmiz texnologiyalardan istifadəni həvəsləndirən idarəetmə sisteminin inkişafı;

Sosial, iqtisadi, siyasi şərtlərin və sosial, iqtisadi, siyasi, mədəni və qlobal mühitin təsir göstərdiyi empirik təcrübə yanaşma/inkişaf modelinin seçiminin sabit olmadığını göstərir.

Gələcəkdə davamlı inkişafın təmin olunması məsələsini, şübhəsiz ki, milli iqtisadi artımın stimullaşdırılması və əhalinin rifah halının artırılması məqsədilə yürüdülən düzgün dövlət siyasətinin köməyi ilə həll etmək lazımdır.

***Yaşıl iqtisadiyyata transformativ keçid***

Yaşıl iqtisadiyyat və transformasiya bir-birinə bağlıdır və dinamik dəyişiklik yaratmaq potensialına malikdir [6, s.113]. Yaşıl iqtisadiyyat iqtisadi, sosial və ekoloji fəaliyyətləri birləşdirir. Yaşıl iqtisadiyyat konsepsiyası karbon emissiyalarının azaldılması və iqlim dəyişikliyinin azaldılması yolu ilə ətraf mühitin deqradasiyası ilə mübarizə aparmaq üçün daha yaşıl və resurs baxımından daha səmərəli texnologiyalara keçidi təmsil edir. [5, s.13].Yaşıl iqtisadiyyatın dövlət və özəl maliyyələşdirilməsi bütün institusional səviyyələrdə və yaşıl biznes və şirkətlərə, təmiz texnologiyalara və s.qoyulan davamlı və məsuliyyətli yaşıl investisiyaları dəstəkləyən sektorlarda artırılmalıdır. Yaşıl şirkət ətraf mühitə təsirləri azaldılmış məhsulları istehsal edən və xidmətləri göstərən şirkət kimi müəyyən olunur.

Yaşıl texnologiyalar dövlətin maliyyə dəstəyi ilə inkişaf etdirilməlidir. Hər hansı iqtisadiyyatın yaşıl sektorlarına yatırılan dünya ÜDM-inin faizi sayəsində məşğulluq artır, artım baş verir və su, enerji və s. xərcləri azalır. Yaşıl iqtisadiyyata qoyulan dövlət və özəl investisiyalar təbii, maliyyə resursları və enerjinin səmərəli istifadəsi hesabına gəlir və məşğulluğun artımına səbəb olur. Enerjinin səmərəli istifadəsi karbon emissiyaları və ətraf mühit çirklənməsini azaldır və biomüxtəlifliyin itirilməsinin və ekoloji xidmətlərin qarşısını alır.

“Yaşıl iqtisadiyyat” termini davamlı inkişaf məqsədlərinin dəstəklənməsi üçün iqtisadi fəaliyyətlərdən istifadə üçün sosial, institusional və siyasi şərtlər tələb edən müəyyən iqtisadi alətlərin tətbiqini əhatə edir. İnkişaf planlarının hazırlanması yaşıl iqtisadiyyata keçidə bir sıra fəaliyyətlər vasitəsilə kömək edə bilər: qlobal istiləşmənin nəticələrini yumşaltmaq, su resursları və tullantıların davamlı idarəçiliyinin təşkili, davamlı infrastruktur, ekosistem xidmətləri və binalar, təbii ehtiyatlara qoyulan investisiyalar və kapital, bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi, “yaşıl” tədqiqat, yaşıl turizm və eko-innovasiyalar, kənd təsərrüfatı və meşə torpaqları, meşə təsərrüfatı və balıqçılıq (bioiqtisadiyyat) idarə edilməsi, “yaşıl” istehsal və təchizat zənciri, “yaşıl” dövlət satınalmaları və s.

Yaşıl iqtisadiyyata keçid kənd təsərrüfatı və meşə təsərrüfatının uzunmüddətli perspektivdə həm iqtisadi, həm də ekoloji cəhətdən davamlı olmasını təmin edir. Məsələn, yaşıllaşdırma biznesi üçün satınalma siyasətindən istifadə etmək yaşıl kənd təsərrüfatı təbii və fiziki kapital aktivləri, bilik və maliyyə sərmayəsi tələb edir. Eyni zamanda buraya torpağın münbitliyinin, sudan istifadənin, təsərrüfatların mexanikləşdirilməsinin, bitkiçilik və heyvandarlıq təsərrüfatının diversifikasiyası və s. effektiv və davamlı idarəetmə sahəsində potensialının artırılması da daxildir.

İnvestisiya təhlili potensialın artırılmasını, idarəetməni , infrastruktur xərclərini, stimulları və s. nəzərə alınmaqla yaşıl iqtisadiyyat və yaşıl enerji siyasətlərinin gəlir və xərclərini qiymətləndirməyə imkan verir.

Biznes və fermer təsərrüfatlarının diversifikasiyası tədbirləri yaşıl iqtisadiyyata keçidi dəstəkləyə bilər. Yaşıl potensiala malik sektorlara aşağıdakıları aid etmək olar :

- ✓ bərpa olunan enerji mənbələri;
- ✓ su təchizatı;
- ✓ tullantıların təkrar emalı;
- ✓ davamlı kənd təsərrüfatı və meşə təsərrüfatı;
- ✓ balıqçılıq;
- ✓ ictimai nəqliyyat;
- ✓ “yaşıl” binalar;
- ✓ turizm;
- ✓ səhiyyə;
- ✓ təhsil;
- ✓ “yaşıl” maliyyə və s.

Balıqçılıq sektorunun yaşıllaşdırılması balıqçılığın daha güclü idarə edilməsini və ətraf mühitə məhdudedici təsir göstərən bioloji hədlər çərçivəsində dayanıqlı ehtiyatları saxlamaq üçün balıqçılıq fəaliyyətinin maliyyələşdirilməsini tələb edir.

Sosial-iqtisadi amillərin kəmiyyət göstəricilərindən istifadə etməklə balıqçılığın, dəniz ekosisteminin və biomüxtəlifliyin dinamikasına təsirin qiymətləndirilməsi balıqçılığın daha səmərəli istismarı üçün zəruridir.

Meşə təsərrüfatının yaşıllaşdırılması iqtisadi və bazar mexanizmlərinə uyğun meşələrin qırılmasının həcminin azaldılmasına və meşələrin bərpasının həcminin artırılmasına yönəldilməlidir. Bu mexanizmlər özündə ekosistem xidmətləri ödənişlərini, gəlirlərin sertifikatlı paylama sxemlərini, karbon emissiyalarının azaldılmasına, meşələrin yanğınlardan və çirklənmədən qorunmasının gücləndirilməsinə, biomüxtəlifliyin və meşə ekosistemlərinin qorunmasına, ekoloji xidmətlərin göstərilməsinə və s. yönəldilmiş meşələrin davamlı idarə edilməsi alətlərini birləşdirir.

Sənaye və istehsal sektorunun yaşıllaşdırılması, eko-sənaye parklarında qapalı dövrə istehsalı

ilə dairəvi iqtisadiyyata nail olmaq məqsədilə əlavə məhsulların və əvəzetmə alternativlərinin istifadəsini dəstəkləmək üçün məhsulların ömrünü uzatmaq və onların təkrar emalını nəzərdə tutur.

Tikinti sektorunun yaşıllaşdırılması dayanıqlı tikinti üçün potensialın və standartların inkişaf etdirilməsi, xərclərin səmərəliliyi və həvəsləndirmə vasitələri ilə siyasət çərçivəsi tələb edir. Binaların yaşıllaşdırılması həm yeni, həm də təmir edilmiş binaların dayanıqlığını təmin etmək məqsədilə enerji təchizatı və bərpa olunan enerji mənbələri üçün investisiya və stimullar tələb edir.

Yaşıl nəqliyyat siyasəti daha ekoloji cəhətdən səmərəli nəqliyyat növləri yaratmaq üçün torpaqdan istifadənin və nəqliyyatın planlaşdırılmasını inteqrasiya etməyi hədəfləyir. Bu məqsədlə motorsuz nəqliyyata keçid, nəqliyyat vasitələri və yanacaq texnologiyalarının təkmilləşdirilməsi, səyahətin ləğvi və ya azaldılması, yükdaşıma üçün su və dəmir yolu nəqliyyatından istifadə, bütün bu tədbirlər mənfi ekoloji və sosial nəticələrin azaldılmasına yönəlib. Yaşıl nəqliyyat siyasəti konsepsiyası daha yaşıl və daha səmərəli yollar vasitəsilə davamlılığı yaxşılaşdırmağa yönəlir. O, özündə hədəfi cəmiyyətə vurulan ekoloji ziyan nöqteyi-nəzərindən nəqliyyat xərclərini və səs-küy çirklənməsinin azaldılması strategiyasını ehtiva edir.

Turizm sektorunun yaşıllaşdırılmasına yerli əhalinin turizmin dəyər zəncirinə daha çox cəlb edilməsi və daxili amillərlə şəraitin strukturunun qarşılıqlı əlaqəsi hesabına nail olmaq olar.

Tullantıların idarə olunması sektorunun yaşıllaşdırılması tullantılar və iqtisadi artım arasındakı əlaqənin kəsilməsini tələb edir. O cümlədən, elektrik və elektron avadanlıqların, e-tullantıların təkrar emalı,tullantıların biokütləsinin bərpa olunan enerjiyə və digər qiymətli resurslara çevrilməsi, qida zəncirində qida tullantılarının azaldılmasını və s. əlavə etmək olar. Sənaye tullantılarının qarşısının alınması strategiyası əlavə məhsullar, su, enerji və digər materialların mübadiləsini asanlaşdırmaq üçün əməkdaşlıq nəticəsində yaranan sənaye simbiozuna əsaslanır.

Su sektorunun yaşıllaşdırılması su ehtiyatlarının keyfiyyət standartları əsasında idarə olunmasını, təkmilləşdirilmiş maliyyə mexanizmləri ilə investisiyaların artırılmasını, daha səmərəli su təchizatına nail olunmasını, ekosistem xidmətlərinin paylanmasının institusional mexanizm və sistemlərinin, bu xidmətin ödənilməsinin hüquq və istifadəsinin təkmilləşdirilməsini tələb edir.

Yaşıl iqtisadiyyata keçid iqtisadiyyatın bütün sahələrini əhatə edir və onların iqtisadi fəaliyyət perspektivlərinin dəyişdirilməsini tələb edir. Yaşıl iqtisadi transformasiya təşkilatın yeni institusional formaları və yaşıl iqtisadi fəaliyyətdə resurslarını və biliklərini mübadilə edən dövlət, özəl və ictimai qurumlar arasında əməkdaşlıq nəticəsində verilən qərarlarla dəstəklənməlidir.

### *Nəticə*

Yaşıl iqtisadiyyat müxtəlif iqtisadi, sosial, mədəni və ekoloji şəraiti əks etdirməlidir.

Davamlı və inklüziv, ağıllı yaşıl iqtisadiyyata keçid məqsədilə yüksək səviyyəli sosial birlik, məhsuldarlıq və məşğulluğu təmin etməyi hədəfləyən siyasətlə xüsusi sahələrə xas strategiyaların mütləq ayrılması lazımdır.

Yaşıl iqtisadiyyat iqtisadi atrımın zəruri olduğu yaşıl artım strategiyasına uyğundur. Burada liberal iqtisadiyyatların istehlakın yetərliliyindən daha çox istehsal səmərəliliyini artırmağı hədəflədiyi müşahidə olunur. Yaşıl artım strategiyası iqtisadi artım və inkişafa nail olmaq üçün ekosistem xidmətlərini təbii ehtiyatlarla təmin edərək ölçmə alətlərini və tövsiyələrini təqdim edir. Həmin dəstək yaşıl iqtisadiyyatın mövcud qaydaları və məqsədləri ilə razılaşdırılmalı və uyğunlaşdırılmalıdır.

Yaşıl iqtisadiyyata keçid strategiyası iqtisadi, sosial və ekoloji çağırışlara cavab verən transformativ fəaliyyətlərə əsaslanır. Uzunmüddətli rifah üçün ənənəvi iqtisadiyyatdan davamlı və yaşıl iqtisadi inkişafa keçid təbii və ekoloji resursların daha effektiv idarə edilməsini, faydaların demokratik əsaslarla və ədalətli bölüşdürülməsini tələb edir. Yaşıl iqtisadiyyata keçid iqtisadi cəhətdən səmərəli, sosial baxımdan inklüziv və digər faydaları olan yaşıl artım strategiyası təşəbbüslərini təmin etməlidir.

Həm yaşıl iş yerlərini, həm də yaşıl enerjini təşviq etmək üçün bəzi tədbirlərə ehtiyac var, lakin ÜTT-nin Subsidiyalar və Kompensasiya Tədbirləri üzrə Sazişi (Agreement on Subsidies) bəzi

regional ticarət sazişləri qadağan edilə bilər. Ticarət siyasəti yaşıl iqtisadiyyat təşəbbüslərini ticarət maneələri, subsidiyalar, investisiya tədbirləri, ixrac məhdudiyyətləri, dövlət satınalmaları və s. kimi spesifik məsələlərdə dəstəkləmək üçün təkmilləşdirilməlidir.

Yaşıl iqtisadiyyat konsepsiyasının əsas elementləri müxtəlif sektorlar üçün strategiya və siyasi istiqamətlərdə formalaşdırılmalıdır. Xüsusi sektorlara ünvanlanan biomüxtəliflik sahəsində strategiya və siyasət yaşıl iqtisadiyyatın dəyər yaradılması ilə əlaqədar olmayan təbii resurslardan səmərəli istifadə və ekoloji hədlər çərçivəsində artım kimi elementlərini həyata keçirməyi hədəfləməlidir, Əlbəttə ki, "yaşıl" iqtisadiyyat konsepsiyası öz bəhrəsini yalnız biz davranışımızı dəyişdirməyə hazır olanda gətirəcək.

Əslində, yaşıl iqtisadiyyata inklüziv yanaşmalar məhdud təsirə malikdir, çünki yaşıl iqtisadiyyat çərçivəsində aydın inklüziv yaşıl məqsədlər mövcud deyildir.Bir sıra ölkələrdə yaşıl iqtisadiyyat çərçivəsində fəaliyyət göstərən yaşıl sektorların xüsusiyyətləri ilə bağlı aktual məlumat və informasiya mənbələri yoxdur.

Praktiki olaraq desək, yaşıl iqtisadiyyat gəlirin və məşğulluğun artması iqtisadiyyatıdır ki, bu, dövlət və özəl sərmayələr hesabına həyata keçirilir. Bu sərmayəni məqsədyönlü dövlət xərcləri, siyasi islahatlarla və normativ-hüquqi tənzimlənmə ilə sürətləndirmək və dəstəkləmək lazımdır.

## ƏDƏBİYYAT

1. Qasımlı, V.Ə. İqtisadi artım. Bakı: 2021, 250 s.
2. Qasımlı, V.Ə. Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr. / V.Qasımlı, Z.Vəliyev, M.Hümbətov, Ş.Hacıyev, G.Nəsibova // Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2014, 144 s.
3. Ferguson P The green economy agenda: business as usual or transformational discourse? *Environmental Politics* 24; 2014, s.17.
4. Fosse J, Petrick K. et al., Towards a Green Economy in the Mediterranean - Assessment of National Green Economy and Sustainable Development Strategies in Mediterranean Countries. eco-union, MIO-ECSDE, GEC. Athens; 2016.s.16-17
5. Janicke M Green growth: from a growing eco-industry to economic sustainability *Energy Policy* 48; 2012. s.13.
6. Pelling M, O'Brien K and Matyas D Adaptation and transformation Climatic Change 133; 2014 s.113.
7. Sumodiningrat, G. 2007. *Pemberdayaan Sosial*, Pustaka Kompas, Jakarta Thøgersen, J., & Zhou, Y. 2012, s.25.
8. UNEP (United Nations Environment Programme) (2011). *Towards a green economy: Pathways to Sustainable Development and Poverty Eradication.*United Nations Environment Programme, Nairobi.

***Ляман Рафик кызы Аллахвердиева***
***Преподаватель Колледжа Пищевой***
***Промышленности при АГЭУ***
***e-mail : ilaxh@mail.ru***

## Зеленая экономика, зеленый рост и устойчивое развитие

***Резюме***

**Целью исследования** -является анализ стратегического перехода к зеленой экономике, зеленому росту и устойчивому развитию с институциональной точки зрения.

**Методология исследования** – анализ и синтез основаны на логическом мышлении, сравнении, методах индукции и дедукции, используются для выражения мнения о фактах.

**Практическая значимость исследования** – как мировая экономическая концепция, зеленая экономика стремится достичь баланса между благосостоянием человека и социальным статусом за счет значительного снижения экологических рисков и экологических недостатков.

**Результатом исследования:** зеленая экономика возрождает мировую экономику, обеспечивая более высокие темпы экономического роста, чем нынешняя модель.

**Оригинальность и научная новизна исследования**- вопросы охраны окружающей среды в глобализированном мире определяют ответственность между обществом и различными экономическими субъектами. Сегодня для обеспечения непрерывности бизнеса экологическое просвещение общества и его адекватное реагирование на эти проблемы являются актуальными задачами.

***Ключевые слова: зеленая экономика, устойчивое развитие, зеленый рост, окружающая среда, трансформации.***

***Lyaman Rafik Allahverdiyeva***
***Lecturer: College of Food Industry under UNEC***
***e-mail: ilaxh@mail.ru***

## Green economy, green growth and sustainable development

***Summary***

**The purpose of the research** – to analyze the strategic transition to green economy, green growth and sustainable development from an institutional perspective.

**Methodology of the research** – analysis and synthesis are based on logical thinking, comparison, induction and deduction methods are used to express opinion about facts.

**The practical importance of the research** – as a global economic concept, green economy seeks to achieve a balance between human well-being and social status by significantly reducing environmental risks and environmental disadvantages.

**The results of the research** – that the green economy is revitalizing the world economy by providing higher economic growth rates than the current model.

**The originality and scientific novelty of the research** – environmental protection issues in a globalized world determine the responsibility between society and various economic actors. Today, to ensure business continuity, environmental education of society and its adequate response to these problems are urgent tasks.

***Key words: green economy, sustainable development, green growth, environment, transformation.***